# "Qiraət axşamı"nda Məhəmməd Füzulinin qəzəlləri səsləndirilib

**Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası "Urbanda görüşərik" layihəsi çərçivəsində növbəti dəfə "Qiraət axşamı"nı təqdim edib.**

Budəfəki gecə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinə həsr olunub. Filarmoniyadan bildirilib ki, "Qiraət axşamı"nda aparıcı Xuraman Ağayeva, qiraətçilər İmamverdi Vəliyev, Gülnarə Sadiq, Zahirə Bədəlova, Vüsal Hicran, Zülfiyyə Yaqub dahi şairin qəzəllərini səsləndiriblər.

Gecənin sonunda gənc vokalçı Qaya Nəsibzadə sözləri Məhəmməd Füzuliyə, musiqisi görkəmli bəstəkar Süleyman Ələsgərova məxsus "Vətənimdir" romansını ifa edib.

Azərbaycan.- 2024.- 4 may, №91.- S.15.